İNŞAATÇI KADRLAR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qəzeti

The newspaper of Azerbaijan University of Architecture & Construction

№4(442) 30 aprel 2021-ci il www.azmiu.edu.az

Şuşa şəhəri memarlıq irsinin bərpa-eskiz layihələrinin təqdimatı

Aprelin 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində Beynəlxalq abidələr gününə həsr olunmuş Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin təqdimat mərasimi keçirilib. Mərasimdə Təhsil Nazirliyindən, Milli Məclisdən, Azərbaycan Memarlar İttifaqından, ali təhsil müssisələrindən nümayəndələr iştirak ediblər.

Universitetin rektoru, professor Gülçöhrə Məmmədova qonaqları salamladıqdan sonra layihə barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, Memarlıq fakültəsində təhsil alan tələbələrin təşəbbüsü ilə ərsəyə gələn Şuşa şəhərinin şəhərsalma strukturunun inkişafı və tarixi memarlıq irsinin bərpası layihəsi üzrə işlərə bir il bundan əvvəl başlanılıb. "Tələbələrimiz və müəllimlərimiz layihə üzərində işə başlayanda Şuşa, eləcə də digər rayonlar hələ işğal altında idi. Amma biz inanırdıq ki, tezliklə o torpaqlar öz sahiblərinə qaytarılacaq, biz bu layihələri orada gerçəkləşdirəcəyik. Bu gün çox sevinirik ki, arzumuza çatmışıq".

Gülçöhrə Məmmədova layihənin hazırlanmasında əsas məqsədin Azərbaycanın tarixi şəhəri olan Şuşanın nümunəsində tarixi şəhərlərin inkişafı və memarlıq irsinin qorunması, abidələrinin bərpasından ibarət olduğunu vurğulayıb. Eyni zamanda o, tezliklə işğaldan azad olunan, erməni vandalizmi nəticəsində dağıdılan Şuşa şəhərində tələbələrimizin təqdim etdiyi şəhərsalma strukturuna dair yeni inkişaf layihələri ilə əlverişli, müasir tələblərə uyğun yaşayışın bərpa olunacağına inamını ifadə edib.

Rektorun çıxışından o da məlum olub ki, təxminən 1 il çəkən bu layihənin hazırlanması üçün tələbələr Şuşanın abidələri, infrastrukturu haqda tarixi məlumatlar toplayıb, arxivlərdə işləyib, mövcud arxiv sənədləri ilə tanış olublar. İki istiqamətdə hazırlanan layihələrin – şəhərsalma strukturunun inkişafı üzərində işləyən tələbələrə AzMİU-nun dosenti, Əməkdar memar Yeganə Hacıyeva, abidələrin bərpası istiqaməti üzrə işləyən tələbələrə isə AzMİU-nun professoru, memarlıq doktoru mən Səbinə Hacıyeva rəhbərlik etmişik.

Daha sonra layihə mərasim iştirakçılarına təqdim olunub. Layihədə şəhərsalma strukturunun inkişafı istiqaməti üzrə işləyən tələbələrə rəhbərlik edən Yeganə Hacıyeva Şuşa şəhərinin 2020–2040-cı illər üzrə baş plan layihəsi barədə danışıb, tələbələrin iştirakı ilə görülən işlər izləyicilərə təqdim olunub. Məlum olub ki, birinci mərhələdə əsasən ictimai, yaşayış və qeyri-yaşayış zonaları, sənaye, istirahət və yaşıllıq əraziləri üzrə işlər görülüb. Sonrakı mərhələdə yeni yaşayış zonaları təklif olunub, şəhərin mövcud ərazisinin 2040-cı ilə qədər yeni sərhədləri ilə bərabər təyini, Şuşa üçün eko turizm marşrutunun, ümumi yaşıllıq sahəsinin rekreasiya zonasının yenilənməsi, yeni tikililər üçün ərazilərin ayrılması, küçələrin şəhərətrafı kateqoriyalarının bölünməsi, piyada turist marşrutlarının təyini və s. həyata keçirilib.

Memarlıq irsinin bərpası istiqaməti üzrə isə ümumilikdə Şuşada 165 tarixi abidə var, amma tələbələr təbii ki, onların hamısı deyil, bir qismi üzərində iş aparıblar. "Biz layihəyə başlayanda Şuşa şəhəri işğal altında idi, biz ora gedə bilmirdik. Tələbələr yalnız arxivlərdən əldə etdikləri məlumatlar, eskizlər əsasında işləyiblər. Şuşanın ayrı-ayrı memarlıq abidələrinin arxivlərdən eskizləri, cizgiləri, fotoşəkilləri və s. kimi məlumatlar götürülərək onların tarixi, memarlıq-dekorativ xüsusiyyətləri tədqiq edilib, internet resursları vasitəsilə indiki vəziyyəti araşdırılıb və eskiz-bərpa layihələri işlənib". Sonra tələbələr Aşağı və Yuxarı Gövhər Ağa məscidi, Xan qızı Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün, Həsən bəy Vəzirovun və başqalarının ev muzeyləri, hamam, karvansaray və bulaqların bərpa eskiz layihələrini təqdim ediblər. Onu da qeyd edək ki, bərpa layihələri təqdim edilən abidələrin 3-D görünüşü tələbələr tərəfindən işlənib.

Təqdimatın sonunda layihənin nəticəsi kimi tələbələr müasir kompüter proqramlarından istifadə edərək Şuşaya ilk gediş marşrutunu təqdim ediblər.

Mərasimdə iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov, millət vəkillərindən Hicran Hüseynova, Aydın Mirzəzadə, Hikmət Babaoğlu, ADMİU-nun rektoru Ceyran Mahmudova tələbələrin təşəbbüsünü alqışlayaraq bu layihədə əməyi olan müəllimlərə də təşəkkür edib, görülən işləri yüksək qiymətləndiriblər.

Səbinə HACIYEVA,
Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri, professor.

Azərbaycan Memarlıq və İnşaat Universiteti dünyanın ən yaxşı universitetləri sırasında

Böyük Britaniyanın "The Times Higher Education" nəşri dünyanın ən nüfuzlu universitetlərinin növbəti reytinq cədvəlini (Impact Rankings – 2021) tərtib edib. Impact Rankings Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq universitetlərin qiymətləndirildiyi yeganə qlobal effektivlik cədvəlidir.

Bu il Azərbaycan Memarlıq və İnşaat Universiteti ilk dəfədir THE Impact Ranking sisteminə daxil olub. AzMİU-nun bu reytinq cədvəlinə daxil olması özlüyündə böyük nailiyyətdir. Dünya universitetlərinin fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının 17 Dayanaqlı İnkişaf Məqsədləri (SDG) üzrə ölçən bu reytinqdə AzMİU dünya universitetləri arasında 801+ yer alıb. Daha sonra Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Mühəndislik Universiteti və Bakı Dövlət Universiteti (1001+) ali təhsil müəssisələri arasında qərarlaşıb.

Qeyd edək ki, reytinq sisteminə 98 ölkədən və regionlardan 1240 universitet daxil edilmişdir. Siyahıya İngiltərənin Mançester Universiteti rəhbərlik edir.

Nigar HƏSƏNOVA,
Strateji planlaşdırma şöbəsinin əməkdaşı.

Elmi Şuranın onlayn iclası keçirilib

Aprelin 28-də Azərbaycan Memarlıq və İnşaat Universiteti Elmi Şurasının növbəti onlayn iclası keçirilib.

İclasın gündəliyinə keçməzdən əvvəl universitetin rektoru, professor Gülçöhrə Məmmədova bu günlərdə dünyasını dəyişmiş universitet əməkdaşlarının, müəllimlərin xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyib.

Rektor çıxışında COVID-19 pandemiyası ilə əlaqədar vaksinasiya prosesinə də toxunub, universitetin professor-müəllim heyətinin və texniki işçilərin bu prosesdə fəal iştirakının təmin olunması üçün müvafiq tapşırıq və tövsiyələrini verib.

Elmi Şuranın gündəliyində duran ilk məsələ ilə bağlı tədris işləri üzrə prorektor Akif Qasımov çıxış edib, "Qış imtahan sessiyasının keçirilməsi və yay imtahan sessiyasına hazırlıq" adlı hesabatını Şura üzvlərinin diqqətinə çatdırıb. Prorektor qış imtahan sessiyasının pandemiya şəraitinə uyğun olaraq Təhsil Nazirliyinin mövcud Əsasnamələri və universitet rektorunun tənzimləyici əmrləri rəhbər tutularaq karantin qaydaları çərçivəsində onlayn formatda keçirildiyini deyib, imtahanlar barədə ətraflı məlumat verib.

O, qeyd edib ki, qış imtahan sessiyasında bakalavr səviyyəsində 6710, SABAH qruplarında 65, magistratura səviyyəsində 508 tələbə yazılı və test imtahanlarında iştirak edib. A.Qasımov fakültələr üzrə imtahan nəticələrini təqdim edib. Məlum olub ki, imtahanlarda ən yüksək müvəffəqiyyət göstəriciləri Memarlıq (95 faiz), İnşaat (94 faiz) fakültələri və SABAH qrupları (100 faiz) üzrə olub. Ümumilikdə universitet üzrə müvəffəqiyyət göstəricisi 91 faiz olub. Prorektor çıxışında qiyabi qruplarda və universitetin nəzdindəki İnşaat Kollecində keçirilən imtahan sessiyasına toxunub, imtahanlarda müşahidə olunan nöqsanlar və çatışmazlıqlardan da danışıb.

Magistratura Mərkəzinin rəhbəri Rövşən Səmədov "Magistratura səviyyəsində elmi-tədqiqat fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr" adlı hesabatında magistr tələbələrin elmi tədqiqat təcrübələrindən danışıb. O, bu təcrübələrin AzMİU-nun 74 elmi-tədqiqat bazasında təşkil olunduğunu Şura üzvlərinin diqqətinə çatdırıb. "Mövcud tədqiqat bazalarının 13-ü AzMİU-da, 24-ü dövlət müəssisə və təşkilatlarında, 37-si isə özəl şirkətlərdədir". R.Səmədov təcrübələrin təşkilində ortaya çıxan problemlərə və qarşıda duran vəzifələrə də toxunub.

İclasın sonunda Strateji inkişaf üzrə prorektor Ülkər Səttarova "2020–2025-ci illər üzrə universitetin strateji inkişaf üzrə planı"nın Elmi Şuranın ötən iclasında geniş müzakirə olunduğunu, sənədə müəyyən dəyişikliklər edildiyini və bu gün təsdiq edilməsi üçün təqdim olunduğunu bildirib.

İclasın sonunda "2020–2025-ci illər üzrə universitetin strateji inkişaf üzrə planı" səs çoxluğu ilə təsdiq olunub.

Nigar ASLANOVA,
Elmi Şuranın katibi.

AzMİU-da təhsil alan Milan Politexnik Universitetinin magistr tələbəsinin diplom işi vətənində ən yüksək bala layiq görülüb

Azərbaycan Memarlıq və İnşaat Universitetinin beynəlxalq əlaqələrinin genişləndirilməsi universitetin ümumi fəaliyyətinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Son illər Erasmus, Tempus, Mövlana kimi beynəlxalq mübadilə proqramlarında aktiv iştirak, eləcə də çoxtərəfli və ikitərəfli çərçivələrdə beynəlxalq əlaqələrin genişlənməsi universitetin beynəlmiləlləşməsi prosesini gücləndirir. Yuxarıda adları çəkilən proqramlar çərçivəsində Avropa universitetləri ilə tələbə-müəllim mübadiləsi, təhsil-texnoloji və istehsalat təcrübələrinin, birgə konfransların, seminarların keçirilməsi, tədqiqat layihələrinin birlikdə işlənməsi uğurla həyata keçirilir. Beynəlxalq əlaqələrin təşkil olunması istiqamətində əsas prioritetlər sırasında tələbə-müəllim mübadiləsi böyük önəm daşıyır.

Artıq 3 ildir ki, AzMİU ilə İtaliyanın Milan Politexnik Universiteti arasında illər öncə başlamış əlaqələr yeni mərhələyə qədəm qoyub. Universitetimizlə Milan Politexnik Universiteti arasında qurulan ikitərəfli əlaqələr Avropa Birliyinin maliyyələşdirdiyi Erasmus+ mübadilə proqramı çərçivəsində də uğurla davam etdirilir. 2019–2020-ci tədris ilinin payız semestrində Erasmus+KA1 mübadilə proqramı çərçivəsində AzMİU-nun Memarlıq fakültəsində təhsil almaq hüququ qazanan Milan Politexnik Universitetinin Memarlıq fakültəsinin II kurs magistr tələbələri – İtaliya vətəndaşları Kevin Prenna və Danyal Zarepourmoghaddam təhsillərini uğurla başa vurub vətənlərinə qayıtdılar. AzMİU-da oxuduqları müddətdə hər iki italyan magistrin layihə qrupları tərkibində hazırladıqları kurs işləri Azərbaycan Memarlar İttifaqının mükafatlarına layiq görülüb.

Magistrlərdən Kevin Prenna Milana qayıtdıqdan sonra elmi rəhbəri, Milan Politexnik Universitetinin professoru Nora Lambardininin rəhbərliyi altında magistr dissertasiyasını AzMİU-da işlədiyi mövzunun bazasında geniş tədqiqatlar apararaq hazırlayıb.

Sevindirici haldır ki, onun AzMİU-da layihə qrupları tərkibində apardığı tədqiqatların bazasında hazırlanmış diplom işi komissiya üzvləri tərəfindən müsbət qiymətləndirilib, ən yüksək bala layiq görülüb.

Emir HÜSEYNOV,
Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının professoru.

Müəllimlərimiz "2021 Design International" seriya vebinarında iştirak ediblər

Aprelin 2-də Azərbaycan Memarlıq və İnşaat Universiteti Dizayn kafedrasının professor-müəllim heyəti və tələbələr "2021 Design International" seriya vebinarında iştirak ediblər. Mart ayının 5-dən başlayan və sayca 5-ci olan bu vebinar da digərləri kimi Seriyanın direktoru, Milan Politexnik Universitetinin Dizayn fakültəsinin dekanı Silvia Piardi və Milandakı Tsinqua İnstitutunun dekan vəzifəsini icra edən İnqçun Janq tərəfindən təşkil olunub. Vebinarın mövzusu "Məhsul dizaynında inkişaf perspektivləri", müəllifləri isə Lüsia Rampino, Françeska Mattioli, İnqrid Kalvo İvanoviç olublar.

Onu da qeyd edək ki, bu beynəlxalq vebinar seriyalar 2017-ci ildən Milanda Franko Anceli Editore tərəfindən yaradılmış müasir dizayn tədqiqatlarının müxtəlif sahələrinə aid fikir və təcrübələri bölüşmək üçün bədii platformadır.

Görüşlərdə yeni nəşr olunmuş və dizaynın müxtəlif sahələrinə həsr olunmuş 20-dən çox kitab materialları əsasında 5 aktual mövzu seçilərək vebinar iştirakçılarının müzakirələrinə təqdim olunur, müəlliflər və bu sahələrin məşhur ekspertləri ilə maraqlı fikir mübadiləsi aparılır.

AzMİU-nun Dizayn kafedrasının müəllimləri, eləcə də tələbələr bu görüşlərdə fəal iştirak edərək təcrübələrini bölüşüb və müzakirə olunan mövzulara Azərbaycan prizmasından çıxış edərək öz münasibətlərini bildiriblər.

Fərid KƏRİMOV,
AzMİU İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru.

Tələbələrimiz istehsalat təcrübəsində

Tələbələrin ixtisas biliklərinə daha dərindən yiyələnmələri məqsədilə Azərbaycan Memarlıq və İnşaat Universitetində IV kurs tələbələri VIII semestri tamamilə istehsalat təcrübəsində keçirirlər. AzMİU tələbələrinin istehsalat təcrübəsi karantin qaydaları nəzərə alınmaqla tədris planına müvafiq olaraq 70 təcrübə günü, ümumilikdə isə 14 həftədən ibarətdir. Universitet rəhbərliyi tərəfindən tələbələrin dövlət müəssisələrində, ölkədə fəaliyyət göstərən aparıcı şirkətlərdə istehsalat təcrübəsi uğurla təşkil edilib.

Hazırda bakalavr dərəcəsi üzrə sonuncu kursda təhsil alan 1705 tələbə diplomqabağı istehsalat təcrübəsini əmək bazarında nüfuz qazanmış müəssisələrdə keçir. Buna müvafiq olaraq tələbələrə universitetin təcrübəli müəllimlərindən ibarət rəhbərlər təyin edilib, təcrübə prosesi universitetin əməkdaşlıq etdiyi 191 şirkətdə və tələbələrin müəssisələrdən təqdim etdiyi fərdi arayışları əsasında aparılır. Bölgələrdə yaşayan tələbələrin təcrübə keçmələri üçün universitet tərəfindən həmin ərazilərdə olan texnikiyönümlü müəssisələrlə danışıqlar aparılıb və bunun nəticəsi olaraq tələbələrimizin uzun məsafə qət etmədən yaşadıqları rayonlara yaxın ərazidə yerləşən müəssisələrdə təcrübə keçmələri təşkil edilib.

Fevralın 16-dan başlanmış təcrübə hazırda davam edir. Təcrübə və karyera mərkəzinin əməkdaşları mütəmadi olaraq təcrübə obyektlərində yoxlamalar aparır, tələbələrin davamiyyətini, onlar üçün yaradılan şəraiti, ümumilikdə təcrübələrin gedişini yerindəcə öyrənirlər. Mərkəzin müdiri Xanlar Qəniyev Baku Grand Proje MMC, Geoid MMC, Milli Aerokosmik Agentliyin Ekologiya İnstitutu, Era Marketinq Center MMC, Qala Həyat Sığorta MMC, Kon Lay MMC-də təcrübə keçən Memarlıq, İnşaat, Nəqliyyat, Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, Tikinti-iqtisad fakültələrinin tələbələri ilə görüşüb, onlara yaradılan şərait, gördükləri işlər və s. ilə tanış olub.

Eyni zamanda universitet rəhbərliyinin müvafiq əmrinə əsasən, Təcrübə və karyera mərkəzi fevralın 16-dan tələbələrin real istehsalat təcrübəsindən geri qalmamaları üçün təcrübənin ənənəvi keçirilmə qaydası ilə bərabər elektron resurslar vasitəsilə məsafəli təşkilinə də start verib. İxtisas kafedraları və İKT Mərkəzinin dəstəyi ilə Təcrübə və karyera mərkəzi təcrübə müddəti ərzində həftədə 2 dəfə olmaqla 124 təcrübə rəhbərinin 1700-dən çox tələbə ilə "Zoom" platforması üzərindən interaktiv formada məsafəli görüşlərinin təşkilinə nəzarət edir. Məsafəli təcrübə zamanı rəhbərlər tələbə və magistrantları real istehsalatda tətbiq edilən layihələr, istifadə olunan qurğular, avadanlıqlar və s. zəruri məlumatlarla tanış edir. Həmçinin, təcrübənin daha təkmil keçirilməsi məqsədilə bu görüşlərə partnyor müəssisələrdən ixtisaslaşdırılmış mütəxəssislər cəlb edilir.

Təcrübə prosesinin məsafəli təşkil olunması tələbə və magistrantların təcrübə əldə etmək imkanlarını artıraraq vaxt, məkan baxımından əlverişli şərait yaradaraq tələbə və müəllim heyəti tərəfindən razılıqla qarşılanır.

Ülkər SƏTTAROVA,
Strateji inkişaf üzrə prorektor.

İran Mədəniyyət Mərkəzinin sədri AzMİU-nun qonağı olub

Aprelin 14-də İran İslam Respublikasının Azərbaycanda fəaliyyət göstərən İran Mədəniyyət Mərkəzinin sədri Qurbanəli Purmərcan Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova ilə görüşüb. Görüşdə Beynəlxalq əlaqələr üzrə prorektor Nərgiz Abdullayeva, Əcnəbi tələbələrin təhsili üzrə dekanı Polad Sadıkov və Xarici əlaqələr şöbəsinin müdir müavini Könül Şirinova iştirak ediblər.

Qurbanəli Purmərcan son 20 ildə İranda memarlıq sahəsinin daha çox inkişaf etməsindən, ölkəsinin ali təhsil müəssisələrinin Azərbaycandakı universitet və təşkilatlarla əməkdaşlıq etmək arzusunda olmasından danışıb. Qonaq qeyd edib ki, fəaliyyətləri İranın Təhsil Nazirliyi tərəfindən müsbət qiymətləndirilən Təbriz, Hünər, Azad universitetləri AzMİU ilə əməkdaşlıq müqaviləsi imzalamaq, bu müqavilə çərçivəsində tələbə-müəllim mübadiləsini həyata keçirmək, gələcəkdə pandemiya şəraiti başa çatdıqdan sonra İranda və Azərbaycanda tələbələrin buraxılış işlərinin birgə sərgilərini keçirmək arzusundadırlar.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova rəhbərlik etdiyi universitetin vaxtilə İran İslam Respublikasının Təbriz Azad Universiteti və Zəncan Universiteti ilə sıx əməkdaşlıq etdiyini bildirdi. İran vətəndaşlarının 1989-cu ildən AzMİU-da təhsilə başladıqlarını deyən rektor rəsmi rəqəmləri qonağın diqqətinə çatdırdı. "Bu müddət ərzində təhsilin bütün səviyyələri üzrə 555-dən artıq (197 bakalavr, 308 magistr, 30 doktorant) İran vətəndaşı universiteti bitirib. İran vətəndaşları universitetdə tədris olunan memarlıq, inşaat mühəndisliyi, iqtisadiyyat, yol tikintisi, su təsərrüfatı və mühəndis sistemləri ixtisasları üzrə bakalavr və magistr səviyyələrində təhsil alıblar. 20 doktorant artıq doktoranturada təhsillərini bitirib və müdafiə ərəfəsindədirlər".

Rektor onu da qeyd etdi ki, 2020/2021-ci tədris ilində universitetdə 20 nəfər İran vətəndaşı oxuyur, onlardan 12-si bakalavr səviyyəsində, 4-ü doktoranturada və 4 nəfəri isə hazırlıq fakültəsində təhsil alır. Gülçöhrə Məmmədova İranın nüfuzlu universitetləri ilə tələbə mübadiləsi məsələsinə toxunaraq deyib ki, mövcud maliyyə imkanları araşdırılaraq müvafiq müqavilələr çərçivəsində bu məsələ öz həllini tapa bilər.

Sonda AzMİU-da olmağından məmnunluğunu ifadə edən qonaq səmimi qəbul üçün rektora təşəkkür edib.

Kəmalə SƏRDAROVA,
Əcnəbi tələbələrin təhsili üzrə dekan müavini.

Tələbələrimizin buraxılış işləri MOOSAO-nun diplomlarına layiq görülüb

MOOCAO-nun rəhbərliyi və Moskva Memarlıq İnstitutunun təşkilatçılığı ilə memarlıq və dizayn üzrə buraxılış işlərinin XXIX onlayn baxış-müsabiqəsi keçirilib. Müsabiqəyə Rusiya, Qazaxıstan, Moldova və Ermənistandan yüzlərlə iştirakçı qatılıb.

Müsabiqədə Azərbaycan Memarlıq və İnşaat Universiteti Memarlıq fakültəsinin bakalavr və magistr səviyyəsi üzrə təhsil alan tələbələri də iştirak ediblər. Tələbələrimizin buraxılış işləri yüksək qiymətləndirilib, MOOCAO-nun I (8 iş) və II (19 iş) dərəcəli diplomlarına layiq görülüb. Bakalavr tələbəmiz Təhmasib Mollaeyyublunun və magistr Məryəm Rəhimlinin işləri isə Moskva Memarlıq İnstitutunun əlavə diplomunu qazanıb.

Yekun iclasda müsabiqənin gələn il Tambov şəhərində keçirilməsi qərara alınıb.

Zahidə MƏMMƏDOVA,
Memarlıq fakültəsinin dekanı.

AzMİU-da vaksinasiya prosesi uğurla davam edir

Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq koronavirus (COVİD-19) infeksiyasına qarşı ölkəmizdə əhalinin peyvənd olunması kampaniyası uğurla davam edir. Koronavirus pandemiyası şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün pedaqoji və texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir. Bunu nəzərə alan və sağlamlıqlarına həssas yanaşan təhsil işçiləri martın 3-dən başlayan vaksinasiya prosesində fəal iştirak edirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021–2022-ci illər üçün Vaksinasiya Strategiyası"na əsasən Azərbaycan Memarlıq və İnşaat Univeritetində də təhsil işçilərinin vaksinləşmə prosesi yaş kateqoriyasına uyğun olaraq mərhələli şəkildə aparılır.

Vaksinasiya prosesində ilk növbədə risk qrupuna aid olan şəxslər, yəni yaşı 65-dən yuxarı olan professor-müəllim heyəti və universitet əməkdaşları iştirak edib, sonra isə mərhələli şəkildə universitetin digər əməkdaşları da peyvənd olunublar.

Bu günə qədər universitetimizdə birinci mərhələdə peyvənd olunanların sayı 440, ikinci mərhələdə isə bu rəqəm 182-dir. Əməkdaşımız AzMİU-nun bir qrup vaksin vurdurmuş əməkdaşı ilə söhbət edib, peyvənd vurulandan sonra onların səhhəti ilə maraqlanıb.

Əcnəbi tələbələrin təhsili üzrə dekan Polad Sadıkov (67 yaş) vaksin vurdurduğunu, özünü çox yaxşı hiss etdiyini deyib. Dekan koronavirusa qarşı aparılan vaksinasiyanın əhalinin sağlamlığının qorunması üçün çox mühüm tədbirlər qrupuna aid olduğunu bildirib. P.Sadıqov Yasamal rayonu 3 saylı şəhər poliklinikasında peyvənd olunub.

Elmi-tədqiqat şöbəsinin müdiri, dosent Nərmin Rzayeva (31 yaş) da xəstəlikdən qorunmaq üçün peyvənd olunmağın vacibliyini vurğulayıb, ilk vaksini vurdurduğunu bildirib. "Vaksinasiya könüllü prosesdir, lakin COVID-19 pandemiyasına yoluxmamaq üçün peyvənd olunmaq çox vacibdir. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaqdır". Vaksinasiyadan sonra özünü normal hiss etdiyini deyən N.Rzayeva səhhətində hər hansı bir dəyişiklik olmadığını qeyd edib və 158 saylı məktəbdə peyvənd olunduğunu bildirib.

"Özünüzü və əzizlərinizi qorumağın, normal həyata qayıtmağın yeganə yolu peyvəndlənmədir!" deyə çağırış edən İnnovativ Biznes İnkubator Mərkəzinin müdiri Nəsibə Əmirbəyova (35 yaş) vaksin olunmağın vacibliyini diqqətə çatdırıb. O, daim tələbələrlə ünsiyyətdə olan təhsil işçilərinin vaksinasiyasının daha vacib olduğunu, başqalarını yoluxdurmamaq üçün könüllü şəkildə peyvənd olunmağı tövsiyə edib. Onu da qeyd edək ki, Sumqayıt şəhərində yaşayan Nəsibə xanım 31 saylı məktəbdə peyvənd olunub.

Məlumat üçün qeyd edək ki, təhsil işçilərinin vaksinasiyasını həyata keçirmək üçün Təhsil Nazirliyinin göstərişi ilə paytaxtdakı ümumi təhsil məktəblərində 10 peyvənd məntəqəsi yaradılıb. Qeydiyyat yerindən asılı olmayaraq və yaş məhdudiyyəti qoyulmayaraq hər bir təhsil işçisi çalışdığı təhsil müəssisəsinin yerləşdiyi rayonun ərazisində formalaşdırılan tibb məntəqəsində peyvənd oluna bilər. AzMİU əməkdaşlarının diqqətinə çatdırırıq ki, onlar peyvənd üçün şəxsiyyət vəsiqələri ilə Yasamal rayonu 158 saylı orta məktəbə müraciət edə bilərlər.

Bir məlumatı da diqqətinizə çatdıraq ki, təhsil işçilərinin COVID-19 əleyhinə vaksinasiyaya daha aktiv qoşulması üçün #TəhsilÜçünVaksinasiya həştəq kampaniyası keçirilir. Hörmətli müəllimlərimiz və əməkdaşlarımız, vaksin olunmağınıza dair şəxsi sosial hesabınız üzərindən qeyd edilən həştəqi əlavə etməklə foto və ya mətn paylaşaraq kampaniyada aktiv iştirak edə bilərsiniz.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, bir daha AzMİU əməkdaşlarını peyvənd olunmağa çağırırıq.

Nəcibə MİRZƏYEVA,
Mətbuat və informasiya şöbəsinin müdiri.

AzMİU-da elmi seminar



Ölkə Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən Qarabağ regionunda ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji baxımdan təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək yaşıl zona, yaxud "Yaşıl məkan" konsepsiyasının hazırlanmasına başlanılıb.

Aprelin 20-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mühəndis sistemləri və qurğularının tikintisi və Əcnəbi dillər, Azərbaycan Dövlət Dəniz Akademiyasının Tətbiqi mexanika və İngilis dili, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Enerji istehsalı texnologiyası, Azərbaycan Texniki Universitetinin Enerji effektivliyi və yaşıl enerji texnologiyaları kafedralarının birlikdə onlayn formatda "Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin enerji təminatında innovativ texnologiyalardan istifadə" mövzusunda elmi seminar keçirilib.

Seminarda çıxış edən AzMİU-nun tədris işləri üzrə prorektoru A.Qasımov, ADDA-nın elm və beynəlxalq əlaqələr üzrə prorektoru V.Sadıqov və ADNSU-nun tərbiyə işləri üzrə prorektoru A.Babayev seminar iştirakçılarını salamlayıb və tədbirin çox aktual bir mövzuya həsr olunduğunu vurğulayıblar.

Daha sonra ADDA-nın Tətbiqi mexanika kafedrasının müdiri V.Həsənov, AzMİU-nun Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri N.Məmmədov, ADNSU-nun Enerji istehsalı texnologiyaları kafedrasının müdir əvəzi Ş.Nəsirov, AMEA-nın əməkdaşı S.Məmmədov maraqlı mövzularda məruzələrlə çıxış edib, Qarabağ ərazisində bərpa olunan enerji mənbələrindən istifadə imkanları, müasir texnologiyaların tətbiqi və s. məsələlər barədə konkret təkliflər irəli sürüblər.

Seminarda həmçinin UNDP-nin ekologiya məsələləri üzrə eksperti İ.Əliyev, ADNSU-nun Enerji istehsalı texnologiyaları kafedrasının professoru M.Ağamalıyev maraqlı təkliflərlə çıxış ediblər.

AzMİU-nun Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin dekanı Z.Musayev çıxış edərək müzakirə olunan məsələnin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etdiyini, seminarın isə çox yüksək səviyyədə keçirildiyini, maraqlı məruzələrin təqdim olunduğunu qeyd edib.

Seminara yekun vuran V.Həsənov və N.Məmmədov belə tədbirlərin vacibliyini qeyd edərək bildiriblər ki, indiki dövrdə ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinin birgə müzakirəsi böyük əhəmiyyət kəsb edir. Gələcəkdə kafedralarda fəlsəfə doktoru və elmlər doktoru səviyyəsində aparılacaq elmi-tədqiqat işlərinin də birgə müzakirə edilməsi üçün razılıq əldə olunub.

Elgiz HƏSƏNOV,
Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin dekan müavini .

AzMİU-da respublika elmi-praktik konfrans

Aprelin 2-də Azərbaycan Memarlıq və İnşaat Universitetində onlayn formatında "Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri" mövzusunda respublika elmi-praktik konfrans keçirilib.

Konfransda respublikamızın bir sıra təşkilatlarının nümayəndələri, o cümlədən nazirliklərin, ali məktəblərin, elmi-tədqiqat institutlarının tanınmış alimləri iştirak ediblər.

Konfransın plenar iclasını giriş sözü ilə açan AzMİU-nun rektoru, Əməkdar memar, Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü, professor Gülçöhrə Məmmədova tədbir iştirakçılarını salamladıqdan sonra işğaldan azad olunmuş Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri ilə bağlı belə bir konfransın keçirilməsinə görə onun təşkilatçısına – AzMİU-nun Sənayenin təşkili və idarə edilməsi kafedrasına təşəkkürünü bildirib.

Rektor geniş və əhatəli çıxışında qeyd edib ki, erməni işğalçıları tərəfindən 30 ilə yaxın bir dövrdə vəhşicəsinə dağıdılmış Qarabağ regionunun bərpasına, onun yenidən qurulmasına ölkəmizin bir sıra idarə, müəssisə və təşkilatları ilə yanaşı, AzMİU-nun alimləri, memarları da yaxından qoşulublar.

Konfransın plenar iclasında tanınmış alimlərdən akademik Ziyad Səmədzadə "Qarabağ regionunun iqtisadi-təbii resursları və onlardan səmərəli istifadə məsələləri", akademik İradə Hüseynova "İşğaldan azad olunmuş ərazilərdə biomüxtəlifliyin, torpaq və su ehtiyatlarının tədqiqi davamlı inkişafın əsasıdır", Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu "İşğaldan azad edilmiş ərazilərin inkişaf strategiyası" və AMEA-nın müxbir üzvü Akif Musayev "İşğaldan azad edilmiş ərazilərin bərpa mərhələləri və xərclərin optimallaşdırılması məsələləri" mövzusunda çıxış ediblər. Aktual məsələlərdən bəhs olunan məruzələr konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Plenar iclasdan sonra konfrans öz işini 3 bölmədə davam etdirib. Bölmələrdə 90-a yaxın məruzə dinlənilib.

Ruhəngiz ƏLİYEVA,
Sənayenin təşkili və idarə edilməsi kafedrasının müdiri.

Clarivate Analytics Şirkəti müəllimlərimiz üçün növbəti vebinar keçirib

Aprelin 20-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin elmi-tədqiqat şöbəsinin təşkilatçılığı ilə professor-müəllim heyəti üçün Publonsplat formasında "Azərbaycanlı alimlər üçün rəyvermə fəaliyyətinin vacibliyi və metodları" mövzusunda onlayn formatda vebinar keçirilib. Vebinarda AzMİU-nun 70-ə yaxın əməkdaşı iştirak edib.



Vebinarın aparıcısı Clarivate Analytics Şirkətinin elmi informasiya resursları üzrə eksperti, lingvistika üzrə fəlsəfə doktoru Lera Kurmakaeva mövzunun müasir zamanda aktuallığını xüsusi vurğulayıb. O, vebinarda Publons platforması haqqında geniş məlumat verib, platformada düzgün axtarış və doğru nəticələrin əldə edilməsi ilə bağlı bilgiləri iştirakçıların nəzərinə çatdırıb. Eyni zamanda rəylərin nümunələri, birgə rəyin yazılması, potensial rəyçi kimi jurnalların redaktorları ilə yaxından əlaqə qurmaq və s. haqqında danışıb.

Nərmin RZAYEVA,
Elmi-tədqiqat şöbəsinin müdiri.

28 Aprel – Ümumdünya Əməyin Mühafizəsi günüdür

İşçilərin təhlükəsiz və sağlam əmək şəraitinin təmin olunmasına dünya ictimaiyyətinin diqqətinin artırılması məqsədilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən 2003-cü ildən etibarən 28 Aprel – Ümumdünya Əməyin Mühafizəsi günü elan olunub. Bütün dünyada olduğu kimi, ölkəmizdə də hər il 28 Aprel – Ümumdünya Əməyin Mühafizəsi günü kimi qeyd olunur. Azərbaycan 12 may 1992-ci ildən Beynəlxalq Əmək Təşkilatına üzvdür, onun 57 Konvensiyasına qoşularaq burada təsbit olunmuş prinsip və normaları qəbul edib.

Ölkəmizdə əməyin mühafizəsi, işçilərin hüquqlarının qorunması, təhlükəsiz və sağlam iş yerlərinin yaradılması sosial siyasətin əsas istiqaməti hesab olunur. Əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edir. Hər bir vətəndaşın layiqli yaşayış və iş yeri ilə təmin olunması bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biridir.

Pandemiya şəraitində iş yerlərində işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasında əməyin mühafizəsinin böyük rolu vardır. İşçilərin infeksiyaya yoluxma riskindən mühafizə olunması üçün aşağıdakı şərtlərə riayət etmələri vacibdir:

– Fiziki distansiya – insanlar arasında kifayət qədər məsafə saxlanılmalıdır. İşlərin mümkün olan qədər virtual görülməsi, yəni telefon, elektron poçt vasitəsi ilə, iclasların onlayn qaydada keçirilməsi, işlərin növbəli aparılması lazımdır.

– Gigiyena – iş yerlərində kifayət qədər dezinfeksiya və antiseptik vasitələrin olması, əllərin təmiz yuyulması mütləqdir.

– Təmizlik işləri – iş yerlərinin və iş masalarının səthlərinin mütəmadi təmizlənməsi, qapı dəstəklərinin, kompüter avadanlıqlarının, tez-tez istifadə olunan digər əşyaların davamlı olaraq antiseptik maddələrlə dezinfeksiya olunması vacibdir. İstifadə olunan otaqlar və sanitariya qovşaqları dezinfeksiya olunmalıdır.

– Təlimatlandırma və maarifləndirmə tədbirləri – işə cəlb olunan bütün işçilər pandemiya şəraitində fərdi mühafizə vasitələrindən istifadə qaydaları, öz vəzifələrini təhlükəsiz yerinə yetirmələri barədə təlimatlandırılmalıdırlar.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Əməyin mühafizəsi və təhlükəsizlik texnikası şöbəsi pandemiya şəraitində universitetin işçilərini infeksiyadan qorumaq üçün lazımi təlimat və buklet-lərlə təmin edirlər. Şöbəmizin əməkdaşları hər həftə kafedra, dekanlıq və şöbələrdə yoxlamalar keçirərək pandemiyaya qarşı sosial və gigiyenik qaydalara necə riayət olunmasını yoxlayırlar. Monitorinqlər zamanı bəzi dekanlıq və kafedralarda neqativ hallara yol verilməsi faktı aşkarlansa da maarifləndirmə, təbliğatın nəticəsi olaraq ümumilikdə bütün qaydalara riayət olunduğu müşahidə edilir. Məhz bu səbəbdən universitetimizdə kütləvi yoluxma halları qeydə alınmayıb. Bu da bizim birgə əməyimizin ümumi qələbəsidir.

Zirəddin MƏMMƏDOV,
Əməyin mühafizəsi və təhlükəsizlik texnikası şöbəsinin müdiri.

ITACA layihəsi çərçivəsində tərəfdaşların növbəti görüşü



Azərbaycan Memarlıq və İnşaat Universitetinin qoşulduğu Avropa Birliyinin maliyyələşdirdiyi Erasmus+KA2 İTACA – "Azərbaycanda ekoloji fövqəladə vəziyyəti qarşılamaq üçün 3-cü dövr təkmilləşdirilmiş təhsil kursunu dəstəkləyən İnnovativ Tədris Mərkəzinin (ITACA)" adlı layihəsi çərçivəsində tərəfdaşların növbəti onlayn görüşü keçirilib.

Görüşdə layihə çərçivəsində qurulacaq laboratoriyaya avadanlıqların alınması və 3-cü dövr təhsil kursunun kurrikulumları ilə bağlı müzakirələr aparılıb. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən müzakirələrdə faydalı təkliflər səsləndirilib, suallar cavablandırılıb.

Fərhad ƏLİYEV,
Xarici əlaqələr şöbəsinin müdiri.

Təsisçi:
Azərbaycan Memarlıq və İnşaat Universiteti

Redaktor:
Akif HACIYEV

Qeydiyyat № 316
Qəzet 1983-cü ildən çıxır

Ünvanımız:
Az1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11

E-mail:
redaksiya@azmiu.edu.az

Telefon: 539-07-28
daxili 5-43, 6-08

Qəzet "Azərbaycan" nəşriyyatının kompüter mərkəzində səhifələnmiş və ofset üsulu ilə çap olunmuşdur

Tiraj 300
Sifariş 816